Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Milli Qida Agentliyi publik hüquqi şəxsi arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında

Anlaşma Memorandumu

Bundan sonra "İştirakçılar" adlandırılacaq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Milli Qida Agentliyi publik hüquqi şəxsi,

Azərbaycan Respublikası və Gürcüstan arasındakı ənənəvi yaxın əməkdaşlıq münasibətlərini nəzərə alaraq, bitki karantini və bitki mühafizəsi üzrə dostluq məsləhətləşmələri vasitəsilə ikitərəfli əməkdaşlığı gücləndirmək məqsədilə,

Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasına (IPPC), fitosanitar tədbirlər üzrə beynəlxalq standartlara və İştirakçıların dövlətlərinin ərazilərində qüvvədə olan qanunvericiliyə uyğun olaraq, ətraf mühitə və insan həyatına mənfi təsir göstərə biləcək zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq, İştirakçıların dövlətlərinin ərazilərində bitki mühafizəsini, bitki və bitkiçilik məhsullarının ixracı və idxalını təmin etmək məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər:

Paraqraf 1

Bu Anlaşma Memorandumunun məqsədi İştirakçılar arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlığı inkişaf etdirmək, və iki ölkə arasında bitki və bitkiçilik məhsullarının ikitərəfli ticarətini asanlaşdırmaqdır.

Paraqraf 2

İştirakçılar qarşılıqlı faydalı ticarəti təşviq etmək məqsədilə bitki karantini və bitki mühafizəsi sahəsində öz səlahiyyətləri daxilində və milli qanunvericiliklərinə uyğun olaraq əməkdaşlıq edəcək və təcrübə mübadiləsi aparacaqlar.

İştirakçılar fitosanitar qanunvericilik, standartlar, texniki tələblər, diaqnostik metodlar və idxal, ixrac və təkrar ixrac edilən bitki və bitkiçilik məhsullarının fitosanitar yoxlamaları ilə bağlı tətbiq olunan nəzarət tədbirləri haqqında məlumat mübadiləsi aparacaqlar.

İştirakçılar idxal, ixrac və təkrar ixrac edilən bitki və bitkiçilik məhsullarında aşkar edilmiş problemlər və tətbiq olunan nəzarət tədbirləri barədə bir-birlərini məlumatlandıracaqlar.

İştirakçılar zərərli orqanizmlərin risk analizi, zərərli orqanizmlərin müşahidəsi və fitosanitar nəzarəti altında olan yüklər sahəsində öz təcrübələrini bölüşəcəklər.

İştirakçılar texniki maneələrdən qaçmaq və fitosanitar nəzarəti altında olan yüklərin təhlükəsiz ticarətini asanlaşdırmaq məqsədilə beynəlxalq standartlara, qüvvədə olan milli qanunvericiliklərinə, habelə fitosanitar tədbirlər üzrə tövsiyələrə riayət edəcəklər.

Paraqraf 3

İştirakçılar öz səlahiyyətləri daxilində aşağıdakı formalarda əməkdaşlıq edə bilərlər:

a) Bitki karantini və bitki mühafizəsi üzrə uzunmüddətli proqramların hazırlanması və onların icrasına nəzarət edilməsi;

b) Fitosanitar qanunvericiliyin, beynəlxalq standartların və texniki tələblərin, diaqnostik metodların və tətbiq olunan nəzarət tədbirlərinin icrası üzrə təcrübə mübadiləsi aparmaq məqsədilə mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkili;

c) Müəssisələrin idxal, ixrac və təkrar ixrac barədə məlumat əldə etmələrini təmin etmək məqsədilə ekspozisiyalar və sərgilər haqqında məlumat mübadiləsi.

Paraqraf 4

Bu Anlaşma Memorandumunun icrasından irəli gələn xərclər İştirakçılar tərəfindən öz büdcələrinə uyğun olaraq qarşılanacaqdır.

Hər bir İştirakçı birgə fəaliyyətlərdə iştirakı ilə bağlı xərcləri özü ödəyəcəkdir.

Paraqraf 5

Bu Anlaşma Memorandumu beynəlxalq müqavilə deyil və beynəlxalq hüquqla tənzimlənən hər hansı hüquq və öhdəliklər yaratmır.

Paraqraf 6

Bu Anlaşma Memorandumunun təfsiri və ya icrası zamanı yarana biləcək hər hansı fikir ayrılıqları İştirakçılar arasında məsləhətləşmələr yolu ilə dostcasına həll ediləcəkdir.

Paraqraf 7

Bu Anlaşma Memorandumuna İştirakçıların qarşılıqlı yazılı razılığı əsasında, bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsini təşkil edən və 8-ci paraqrafın müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca Protokollar formasında dəyişikliklər edilə bilər.

Paraqraf 8

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddət ərzində qüvvədə qalacaqdır. İştirakçılardan hər biri istənilən vaxt digər İştirakçıya bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə yazılı şəkildə bildiriş verə bilər. Xitam belə bildirişin alınmasından 6 (altı) ay sonra qüvvəyə minir.

Bu Anlaşma Memorandumunun ləğvi, İştirakçılar başqa cür razılığa gəlmədiyi təqdirdə, bu Anlaşma Memorandumuna uyğun olaraq başlanmış layihə və proqramların icrasına onlar tamamlanana qədər təsir göstərməyəcəkdir.

Signaxi şəhərində, "30" oktyabr 2026-cı il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, gürcü və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

Azərbaycan Respublikasının
Qida Təhlükəsizliyi Agentliyi
adından

Gürcüstanın
Ətraf Mühitin Mühafizəsi və
Kənd Təsərrüfatı Nazirliyinin
Milli Qida Agentliyi publik hüquqi şəxsi
adından

MEMORANDUM OF UNDERSTANDING

ON COOPERATION IN THE FIELD OF PLANT QUARANTINE AND PLANT PROTECTION BETWEEN THE FOOD SAFETY AGENCY OF THE REPUBLIC OF AZERBAIJAN AND THE LEPL NATIONAL FOOD AGENCY OF THE MINISTRY OF ENVIRONMENTAL PROTECTION AND AGRICULTURE OF GEORGIA

The Food Safety Agency of the Republic of Azerbaijan and the LEPL National Food Agency of the Ministry of Environmental Protection and Agriculture of Georgia, hereinafter referred to as the "Participants",

To strengthen bilateral cooperation through friendly consultations on plant quarantine and plant protection with the view of the traditional close relations between the Republic of Azerbaijan and Georgia,

To prevent the introduction and spread of harmful organisms that may adversely affect the environment and human life, and to ensure proper plant protection, the export and import of plant and plant products in the territories of the states of the Participants, in accordance with the International Plant Protection Convention (IPPC), international standards on phytosanitary measures, and the legislation in force in the territories of the States of the Participants

Have reached the following understanding:

PARAGRAPH 1

The purpose of this Memorandum of Understanding is to develop cooperation in the field of plant quarantine and plant protection between the Participants and to facilitate bilateral trade of plants and plant products between the two countries.

PARAGRAPH 2

The Participants will cooperate and exchange experiences within their competencies and in accordance with their national legislation in the field of plant quarantine and plant protection to promote mutually beneficial trade.

The Participants will exchange information on phytosanitary legislation, standards and technical requirements, diagnostic methods and control measures applied to phytosanitary inspections of imported, exported and re-exported plants and plant products.

The Participants will inform each other about any problems found and the control measures applied to protect imported, exported and re-exported plants and plant products.

The Participants will share their experiences in conducting risk analysis of pests, pest surveillance, and consignments under phytosanitary control.

The Participants will comply with the international standards and their national legislation in force as well as recommendations on phytosanitary measures in order to avoid

technical barriers and to facilitate the safe trade of consignments under phytosanitary control.

PARAGRAPH 3

The Participants within their competencies may cooperate in the following form:

a) Development of long-term programs on plant quarantine and plant protection and monitor their implementation;

b) Arrangement mutual visits of specialists in order to share the experience in the implementation of the phytosanitary legislation, international standards and technical requirements, diagnostic methods and applied control measures;

c) Exchange of information on expositions and exhibitions in order to enable enterprises to obtain information on import, export and re-export.

PARAGRAPH 4

The costs arising from the implementation of this Memorandum of Understanding will be covered by the Participants according to their budgets.

Each Participant will cover the costs of its participation in joint activities.

PARAGRAPH 5

This Memorandum of Understanding is not an international treaty and does not create any rights and obligations regulated by international law.

PARAGRAPH 6

Any disagreements that may arise from interpretation or implementation of this Memorandum of Understanding will be settled amicably through consultations between the Participants.

PARAGRAPH 7

Amendments may be made to this Memorandum of Understanding by mutual written consent of the Participants, in a form of separate protocols, which will constitute an integral part of this Memorandum of Understanding and come into effect in accordance with the provisions of Paragraph 8.

PARAGRAPH 8

This Memorandum of Understanding will come into effect on the date of its signature and will remain valid for an indefinite period of time. Either Participant may, at any time notify the other Participant in written form of its intention to terminate this Memorandum of Understanding. The termination will take effect 6 (six) months after the receiving of such notification.

The termination of this Memorandum of Understanding will not affect the implementation of projects and programs initiated pursuant to this Memorandum of Understanding until they are completed unless the Participants decide otherwise.

Signed in Sighnaghi on 30 October 2026 in two original copies, each in the Azerbaijani, Georgian and English languages, all texts being equally authentic. In case of any divergence of interpretation, the English text will prevail.

ON BEHALF OF
THE FOOD SAFETY AGENCY
OF THE REPUBLIC OF AZERBAIJAN

ON BEHALF OF
THE LEPL NATIONAL FOOD AGENCY OF
THE MINISTRY OF ENVIRONMENTAL
PROTECTION AND AGRICULTURE OF
GEORGIA

ურთიერთგაგების მემორანდუმი
აზერბაიჯანის რესპუბლიკის სურსათის უვნებლობის სააგენტოსა და საქართველოს გარემოს დაცვისა და სოფლის მეურნეობის სამინისტროს სსიპ სურსათის ეროვნულ სააგენტოს შორის მცენარეთა კარანტინისა და მცენარეთა დაცვის სფეროში თანამშრომლობის შესახებ

აზერბაიჯანის რესპუბლიკის სურსათის უვნებლობის სააგენტო და საქართველოს გარემოს დაცვისა და სოფლის მეურნეობის სამინისტროს სსიპ სურსათის ეროვნული სააგენტო, შემდგომში „მხარეებად“ წოდებულნი,

აზერბაიჯანის რესპუბლიკას და საქართველოს შორის ტრადიციულად არსებული მჭიდრო ურთიერთობების გათვალისწინებით, მცენარეთა კარანტინისა და მცენარეთა დაცვის სფეროში მეგობრული კონსულტაციების გზით ორმხრივი თანამშრომლობის გაძლიერების მიზნით,

მავნე ორგანიზმების შეჭრისა და გავრცელების თავიდან ასაცილებლად, რომლებმაც შეიძლება უარყოფითად იმოქმედონ გარემოზე და ადამიანის სიცოცხლეზე, აგრეთვე, მცენარეთა დაცვის სათანადოდ უზრუნველყოფისა და მხარე სახელმწიფოების ტერიტორიებზე საერთაშორისო მცენარეთა დაცვის კონვენციის (IPPC), ფიტოსანიტარიული ღონისძიებების საერთაშორისო სტანდარტების და მონაწილე სახელმწიფოების ტერიტორიებზე მოქმედი კანონმდებლობის შესაბამისად მცენარეთა და მცენარეული პროდუქტების ექსპორტისა და იმპორტის რეგულირების მიზნით,

თანხმდებიან შემდეგზე:

მუხლი 1

წინამდებარე ურთიერთგაგების მემორანდუმის მიზანია მხარეებს შორის მცენარეთა კარანტინისა და მცენარეთა დაცვის სფეროში თანამშრომლობის განვითარება და ორ ქვეყანას შორის მცენარეებითა და მცენარეული პროდუქტებით ორმხრივი ვაჭრობის ხელშეწყობა.

მუხლი 2

მხარეები ითანამშრომლებენ და გაცვლიან გამოცდილებას თავიანთი კომპეტენციის ფარგლებში და მცენარეთა კარანტინისა და მცენარეთა დაცვის სფეროში მათი ეროვნული კანონმდებლობის შესაბამისად, ურთიერთსასარგებლო ვაჭრობის ხელშეწყობის მიზნით.

მხარეები გაცვლიან ინფორმაციას ფიტოსანიტარიული კანონმდებლობის, სტანდარტებისა და ტექნიკური მოთხოვნების, დიაგნოსტიკური მეთოდებისა და კონტროლის ღონისძიებების შესახებ, რომლებიც გამოიყენება იმპორტირებული, ექსპორტირებული და რეექსპორტირებული მცენარეებისა და მცენარეული პროდუქტების ფიტოსანიტარიულ ინსპექტირებაზე.

მხარეები აცნობებენ ერთმანეთს გამოვლენილი პრობლემებისა და კონტროლის ზომების შესახებ, რომლებიც გამოიყენება იმპორტირებული, ექსპორტირებული და რეექსპორტირებული მცენარეებისა და მცენარეული პროდუქტების დასაცავად.

მხარეები გაუზიარებენ ერთმანეთს გამოცდილებას მავნებლების რისკის ანალიზის, მავნებლების ზედამხედველობისა და ფიტოსანიტარიულ კონტროლს დაქვემდებარებული ტვირთების მართვის პროცესში.

მხარეები დაექვემდებარებიან საერთაშორისო სტანდარტებს და მათ მოქმედ ეროვნულ კანონმდებლობას, ასევე ფიტოსანიტარიული ზომების შესახებ რეკომენდაციებს, რათა თავიდან აიცილონ ტექნიკური ბარიერები და ხელი შეუწყონ ფიტოსანიტარიულ კონტროლს დაქვემდებარებული ტვირთებით უსაფრთხო ვაჭრობას.

მუხლი 3

მხარეებს თავიანთი კომპეტენციის ფარგლებში შეუძლიათ ითანამშრომლონ შემდეგი ფორმით:

ა) მცენარეთა კარანტინისა და მცენარეთა დაცვის გრძელვადიანი პროგრამების შემუშავება და მათი განხორციელების მონიტორინგი;

ბ) ფიტოსანიტარიული კანონმდებლობის, საერთაშორისო სტანდარტებისა და ტექნიკური მოთხოვნების, დიაგნოსტიკური მეთოდებისა და გამოყენებული კონტროლის ღონისძიებების განხორციელების გამოცდილების გაზიარების მიზნით სპეციალისტთა ორმხრივი ვიზიტების ორგანიზება;

გ) ექსპოზიციებისა და გამოფენების შესახებ ინფორმაციის გაცვლა, რათა საწარმოებმა მიიღონ ინფორმაცია იმპორტის, ექსპორტისა და რეექსპორტის შესახებ.

მუხლი 4

წინამდებარე ურთიერთგაგების მემორანდუმის განხორციელების შედეგად წარმოშობილ ხარჯებს დაფარავენ მხარეები, მათი ბიუჯეტის გათვალისწინებით.

თითოეული მხარე დაფარავს ერთობლივ აქტივობებში მონაწილეობის ხარჯებს.

მუხლი 5

წინამდებარე ურთიერთგაგების მემორანდუმი არ არის საერთაშორისო ხელშეკრულება და არ ქმნის საერთაშორისო კანონმდებლობით რეგულირებულ უფლებებსა და ვალდებულებებს.

მუხლი 6

ნებისმიერი უთანხმოება, რომელიც შეიძლება წარმოიშვას წინამდებარე ურთიერთგაგების მემორანდუმის ინტერპრეტაციის ან განხორციელების შედეგად, მოგვარდება მეგობრულად, მხარეთა შორის კონსულტაციების გზით.

მუხლი 7

წინამდებარე ურთიერთგაგების მემორანდუმში ცვლილებები შეიძლება შეტანილ იქნეს მხარეთა ორმხრივი წერილობითი თანხმობით, ცალკეული ოქმების სახით, რომელიც

წარმოადგენს წინამდებარე ურთიერთგაგების მემორანდუმის განუყოფელ ნაწილს და შევა ძალაში მე-8 მუხლის დებულებების შესაბამისად.

მუხლი 8

წინამდებარე ურთიერთგაგების მემორანდუმი ძალაში შედის მისი ხელმოწერის თარიღიდან და მოქმედებს განუსაზღვრელი ვადით. თითოეულ მხარეს უფლება აქვს ნებისმიერ დროს წერილობით აცნობოს მეორე მხარეს ურთიერთგაგების მემორანდუმის შეწყვეტის განზრახვის შესახებ. მოქმედების შეწყვეტა ძალაში შედის ასეთი შეტყობინების მიღებიდან 6 (ექვსი) თვის შემდეგ.

წინამდებარე ურთიერთგაგების მემორანდუმის შეწყვეტა გავლენას არ მოახდენს ურთიერთგაგების მემორანდუმის საფუძველზე ინიცირებული პროექტებისა და პროგრამების განხორციელებაზე, მათ დასრულებამდე, თუ მხარეები სხვაგვარად არ გადაწყვეტენ.

ხელმოწერილია სოფია-ში, 2026 წლის 30 ოქტომბერს, ორ დედნად, თითოეული აზერბაიჯანულ, ქართულ და ინგლისურ ენებზე, ყველა ტექსტი თანაბრად ავთენტურია. ინტერპრეტაციაში რაიმე განსხვავებულობის შემთხვევაში უპირატესობა მიენიჭება ინგლისურ ტექსტს.

აზერბაიჯანის რესპუბლიკის სურსათის უვნებლობის სააგენტოს სახელით	საქართველოს გარემოს დაცვისა და სოფლის მეურნეობის სამინისტროს სსიპ სურსათის ეროვნული სააგენტოს სახელით
	